**Məmmədov Y.B.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2018.57.243-262**

# Terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə cinayətlərinin istintaqı prosesində səlahiyyətli orqanların qarşılıqlı əlaqəsinin xüsusiyyətləri

**Xülasə:** Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarının qarşısında duran vəzifələrin həlli, terror xarakterli cinayətlərin törədilməsini şərtləndirən səbəblərin kökünün kəsilməsi,habelə müstəntiqlərin və hüquq-mühafizə orqanlarının digər əməkdaşlarının terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə cinayətlərininaçılması və araşdırılması aktual məsələdir. Bu növ cinayətlər zamanı müstəntiqin əməliyyat-axtarış orqanları ilə qarşılıqlı əlaqəsi mühüm əhəmiyyət kəsb edir.

İstintaq və əməliyyat-axtarış (təhqiqat) orqanlarının birgə fəaliyyətinin formasından asılı olmayaraq, onlar həmişə müxtəlif müstəqil funksiyalı orqanlar kimi fəaliyyət göstərirlər. Bu orqanların birgə fəaliyyətinin yeganə uyğun cəhəti onların fəaliyyətinin razılaşdırılmış formada planlaşdırılması, ümumi məqsədə xidmət edəcək istintaq və əməliyyat qruplarının yaradılması, istintaq və əməliyyat hərəkətlərinin aparılacağı yerə birgə getmənin təşkil olunması, qarşılıqlı məlumat mübadiləsi, istintaq və əməliyyat-axtarış məlumatlarının birgə müzakirə edilməsidir.

**Açar sözlər:** cinayətlərin istintaqı; əməliyyat-axtarış fəaliyyəti; qarşılıqlı əlaqə; məlumatların mübadiləsi.

Terrorçuluq barədə bilə-bilə yalan məlumat verməcinayətlərinin istintaqında qarşılıqlı əlaqə dedikdə, təşkilati cəhətdən müstəqil subyektlər tərəfindən ümumi

♦**Məmmədov Yaşar Bəxtiyar oğlu** – Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin dissertantı (Azərbaycan). E-mail: cavid6455@mail.ru

vəzifələrin kompleks həllinə istiqamətlənmiş, qanunvericilikdə nəzərdə tutulmuş qaydada hər bir tərəfin malik olduğu metod və vasitələrdən istifadə etməklə həyata keçirilən birgə razılaşdırılmış fəaliyyət başa düşülür [3, s. 137].

Terrorçuluq barədə bilə-bilə yalan məlumat verməcinayətlərinin açılması və araşdırılması fəaliyyətini həyata keçirən subyektlərin qarşılıqlı əlaqəsi zərurəti aşağıda göstərilən əsas hallarla şərtləndirilir:

- terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə cinayətlərinə qarşı mübarizə üzrə ümumi vəzifələrin mövcudluğu;

- onlar tərəfindən tətbiq edilən metod və vəzifələrin müxtəlifliyi, həmçinin cinayət-prosessual və əməliyyat-axtarış funksiyalarının bir araya sığmaması.Belə ki, müstəntiq həyata keçirdiyi istintaq və digər prosessual hərəkətləri Azərbaycan Respublikası CPM-ə, əməliyyat işçiləri isə əməliyyat-axtarış fəaliyyətinin metod və vasitələrini tətbiq edərkən digər qanunlara, əmrlərə və təlimatlara əsaslanırlar.Bu zaman müstəntiq əməliyyat-axtarış tədbirlərini müstəqil olaraq həyata keçirmək hüququna malik deyildir.Mütəxəssislər isə öz növbəsində informasiyaların maddi daşıyıcılarının təhqiqatının (fiziki, kimyəvi, riyazi, bioloji və s.) metod və vasitələrini tətbiq edirlər;

- terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə işləri üzrə cinayət işlərinin istintaqı prosesində cinayət-prosessual və əməliyyat-axtarış fəaliyyətinin nəticələrinin hüquqi əhəmiyyətinin müxtəlifliyi. Belə ki, istintaq hərəkətlərinin həyata keçirilməsi zamanı müstəntiq cinayət işi üçün məhkəmə sübutları, əməliyyat-axtarış tədbirlərinin keçirilməsi nəticəsində isə əməliyyat işçisi sonrakı prosessual yoxlanılmalı olan əməliyyat məlumatı əldə edirlər;

- terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə cinayətləri ilə əlaqədar informasiya alan subyektlə bu informasiyanı istifadə edən subyektin funksiyaları arasında olan uyğunsuzluq.Belə ki, bu işlər üzrə bir çox hallarda müstəntiq tərəfindən istintaq hərəkətlərinin aparılması zamanı əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə nəticələnən informasiyalar əldə edilir.Əməliyyat-axtarış

tədbirlərinin tətbiqi nəticəsində isə istintaq hərəkətlərinin təşkili və aparılması prosesində müstəntiq tərəfindən istifadə edilməli olan informasiya (məsələn, cinayətin digər iştirakçılarının və ya terrorçuluq əməlinin törədilməsi alətinin yeri haqqında məlumat və s.) əldə edilir.

Terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə cinayətlərinin istintaqı prosesində subyektlər – müstəntiq, əməliyyat işçisi, mütəxəssis və s. arasında qarşılıqlı əlaqənin hüquqi əsası qismində cinayət, cinayət-prosessual, inzibati-hüquqi normalar və qanun qüvvəli normativ aktlar (müəssisədaxili əmrlər, təlimatlar və s.) çıxış edirlər.

Terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə işləri üzrə istintaq zamanı qarşılıqlı əlaqə aşağıdakı mərhələlərdən ibarətdir:

- terror xarakterli fövqəladə hadisələr haqqında siqnalların əməliyyat (istintaqa qədər) yoxlanması;
- əməliyyat yoxlama materialları üzrə (terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə cinayətinin əlamətləri mövcud olduqda) cinayət işinin başlanılması;
- konkret terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə ilə bağlı cinayət işi üzrə ibtidai istintaq.

Terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə işləri üzrə istintaq prosesində müstəntiq, əməliyyat işçisi, mütəxəssis və s. arasında qarşılıqlı əlaqənin səmərəliliyini artırmaq məqsədilə aşağıdakı prinsiplərə əsaslanmaq lazımdır:

- qanun və digər normativ-hüquqi aktların müddəalarına ciddi riayət olunması;
- birgə fəaliyyətin həyata keçirilməsi prosesində qarşılıqlı əlaqənin bütün iştirakçıları tərəfindən məxfiçiliyə riayət olunma;
- qarşılıqlı əlaqə üzrə fəaliyyətə vahid rəhbərliyin məsul əməkdaş tərəfindən həyata keçirilməsi;
- qarşılıqlı əlaqənin müxtəlif növ və formalarının ən münasib qaydada

istifadə edilməsi;

- terrorçuluğa qarşı mübarizə aparan müvafiq icra hakimiyyəti orqanlarının qarşılıqlı əlaqə prosesinə cəlb edilməsi və subyektlərin fərdi təhlükəsizliyinin təmin olunması.Bu tələblərə səhlənkarlıqla yanaşma isə faciəli nəticələrə, maddi sübutların məhv edilməsinə və s. gətirib çıxarır;

- konkret istintaq hərəkətlərinin və taktiki əməliyyatların keçirilməsi zamanı subyektlərin funksiyalarının, onların səlahiyyətlərinin və fərdi məsuliyyətinin göstərilməsi ilə qarşılıqlı əlaqənin planlaşdırılması;

- terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə cinayəti ilə bağlı istintaq-əməliyyat qrupu üzvləri tərəfindən hadisə yerinə baxış zamanı və icraatında olan cinayət işi üzrə istintaq prosesində qarşılıqlı əlaqəni həyata keçirən zaman müstəntiqin aparıcı rolunun təmin edilməsi;

- terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə cinayətlərinin istintaqı prosesinə cəlb edilmiş müxtəlif orqanlar arasında qarşılıqlı əlaqənin başlanması və başa çatmasının əlverişli vaxtının səmərəlilik nöqteyi-nəzərindən seçilməsi;

- texniki-kriminalistik və əməliyyat-texniki vasitələrin kompleks tətbiqi.

Terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə işləri üzrə istintaqda qarşılıqlı əlaqənin effektivliyini təmin etmək üçün müəyyən şərtlərə riayət etmək lazımdır.Bunlara aiddir:

- qarşılıqlı əlaqədə iştirak edən hər bir orqan və ya konkret şəxs tərəfindən işlə bağlı birgə müzakirə üçün sualların qoyulmasında təşəbbüskarlıq;

- bu müzakirələr zamanı, prosessual və xidməti vəziyyətindən asılı olmayaraq bütün qarşılıqlı əlaqə iştirakçılarının bərabərliyi;

- birgə qəbul olunmuş qərarlar üzrə hər bir qarşılıqlı əlaqə subyektinin (orqan və ya qrup üzvünün) bu qərarların realizəsində müstəqilliyi;

- qarşılıqlı əlaqədə olan proses iştirakçılarının bir-birinə zəruri köməkliyin göstərilməsi.

Zənnimizcə, hər hansı qarşılıqlı əlaqənin effektivliyi həm də bu prosesdə iştirak edən hər bir tərəfin lazımi səviyyədə aktivliyi ilə sıx bağlıdır [4, s. 104]. Bu cür aktivliyin əsas metodlarına isə aşağıdakıları aid etmək olar:

- terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə cinayətlərinin kriminalistik xarakteristikası haqqında dərin biliklər, bu cinayətlərin ibtidai istintaqının təşkili, zəruri istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi taktikası, texniki kriminalistik metod və vasitələrin tətbiqi bacarığı;
- qarşılıqlı əlaqə prosesində bu fəaliyyətin ümumi məqsədləri haqqında məlumatın olması (şübhəli şəxsin cinayət başında yaxalanması, terror təşkilatının başçısının nüfuzdan salınması, qanunsuz silah-sursat anbarının məhv edilməsi və s.);
- hər bir qarşılıqlı əlaqə iştirakçısında yüksək məsuliyyət hissinin mövcudluğu.

Onu qeyd etmək yerinə düşərdi ki, qarşılıqlı əlaqənin nəticələri keçirilən birgə iclasların sayına görə deyil, real həyata keçirilən birgə tədbirlərin keyfiyyəti ilə qiymətləndirilməlidir.Terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə cinayətlərinə, ümumilikdə terror xarakterli cinayətlərə qarşı mübarizəni aparan dövlət orqanlarına kömək göstərilməsi haqqında Azərbaycan Respublikasının «Terrorçuluğa qarşı mübarizə haqqında» Qanununda qeyd olunur (mad.6): «Dövlət və yerli özünüidarəetmə orqanları, mülkiyyət formasından asılı olmayaraq, təşkilatlar, ictimai birliklər, vəzifəli şəxslər və vətəndaşlar terrorçuluğa qarşı mübarizə aparan dövlət orqanlarına kömək etməyə borcludurlar».Bu da öz növbəsində terrorçuluğa qarşı mübarizə aparan müvafiq icra hakimiyyəti orqanları ilə digər hüquqi və fiziki şəxslərin qarşılıqlı əlaqəsini şərtləndirir.

Terrorçuluğa qarşı mübarizədə, o cümlədən bu kateqoriyadan olan cinayətlərin açılması və araşdırılmasında MDB-nin Antiterror Mərkəzi mühüm əhəmiyyət kəsb edir. Bu mərkəz öz səlahiyyətləri çərçivəsində MDB məkanında terrorçuluğa qarşı mübarizə üzrə dövlətlərin, nazirliklərin, müəssisələrin və ictimai

təşkilatların qarşılıqlı əlaqəsini təmin edir [2, s. 121].

Hüquq-mühafizə orqanlarının istintaq və əməliyyat-axtarış (təhqiqat) orqanlarının qarşılıqlı fəaliyyəti cinayətlərin [1] açılmasına, araşdırılmasını və qarşısının alınmasına yönəldilmiş müvafiq məsələlər həll edilərkən istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin qarşılıqlı əlaqəsi və asılılığı əsasında yaranır. Əməliyyat-axtarış hərəkətləri yerinə yetirilərkən alınmış məlumatların tədqiq edilməsinin müəyyən mərhələsində bu və ya digər istintaq hərəkətinin aparılması zəruri olur. Eyni zamanda həmin cinayət işi üzrə sübutların toplanılması da, öz növbəsində, əməliyyat-axtarış hərəkətlərinin həyata keçirilməsini tələb edə bilər. Bu, istintaq və əməliyyat-axtarış (təhqiqat) orqanlarının qarşılıqlı fəaliyyəti üçün zəmin yaradır.

Cinayət-prosessual qanun normalarında cinayətlərin araşdırılması zamanı istintaq və əməliyyat (təhqiqat) orqanlarının qarşılıqlı fəaliyyətini əks etdirən və ümumi müddəalarını təşkil edən «qarşılıqlı fəaliyyət» termininə rast gəlinmir.Lakin qanunun müvafiq maddələrində cinayətlərin açılması, araşdırılması və qarşısının alınması gedişində bu orqanlara həvalə edilmiş fəaliyyətin mahiyyəti müvəffəqiyyətlə açılmışdır.

İstintaq və əməliyyat bölmələrinin qarşılıqlı əlaqəsinin hüquqi əsasını Azərbaycan Respublikası Konstitusiyası, Azərbaycan Respublikasının cinayət və cinayət-prosessual qanunvericiliyi, «Əməliyyat-axtarış fəaliyyəti haqqında», Qanunu, cinayətkarlıqla mübarizə sahəsində qanunvericilik və icra orqanlarının (prokurorluq, daxili işlər, ədliyyə, vergi, gömrük orqanları və s.) normativ-hüquqi aktları təşkil edir.

İbtidai istintaqın aparılması məcburi olan bütün işlər üzrə istintaq və əməliyyat (təhqiqat) orqanlarının prosessual münasibəti yarana bilər.Əməliyyat-axtarış (təhqiqat) orqanı istintaq hərəkətlərinin aparılmasını cinayət işi başlanılan vaxtdan etibarən on gündən gec olmayaraq qurtarmalı və işi müstəntiqə verməlidir, cinayət etmiş şəxsin tapılması mümkün olmadan iş müstəntiqə verildikdə,

əməliyyat-axtarış (təhqiqat) orqanları cinayətkarı müəyyən etmək üçün əməliyyat-axtarış tədbirləri görməkdə davam edərək bunun nəticələri haqqında müstəntiqə məlumat verir [5, s. 42].

Əməliyyat-axtarış orqanlarının bütün fəaliyyəti cinayət-prosessual qanunvericiliyinin normaları ilə nizama salınmasa da, onlara zidd olmamalıdır.İstintaq və əməliyyat (təhqiqat) orqanlarının qarşılıqlı fəaliyyətinin cinayət-prosessual qanunvericiliyin normaları əsasında daha da gücləndirilməsi cinayətlərin qısa vaxtda, daha az qüvvə və vəsait sərf etməklə açılmasına şərait yaradır.

Qarşılıqlı fəaliyyətin formaları müxtəlif ola bilər. Onların təsnifləşdirilməsi iki əsas cəhətlə: müstəntiqin tapşırığı ilə əməliyyat (təhqiqat) orqanının həyata keçirdiyi fəaliyyətin xarakteri və qarşılıqlı fəaliyyətin həyata keçirilməsi müddəti ilə əlaqədardır.

Azərbaycan Respublikası CPM-ə müvafiq olaraq cinayətlərin istintaqı zamanı istintaq və əməliyyat (təhqiqat) orqanlarının qarşılıqlı fəaliyyətinin formalarına aşağıdakılar aid edilir:

- istintaq bölmələri tərəfindən əməliyyat bölmələrinə əməliyyat-qeydiyyat işləri (ƏQİ) açıldıqdan başa çatanadək əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində cinayət-hüququ və cinayət-prosessual xarakterli məsləhətlərin verilməsi sahəsində metodiki köməklik göstərilməsi;
- törədilmiş və ya hazırlanan cinayətlər barədə fiziki, hüquqi (vəzifəli) şəxslərin, həmçinin kütləvi informasiya vasitələrinin məlumatlarına baxılarkən birgə fəaliyyətin həyata keçirilməsi;
- cinayət işləri üzrə, onların başlanıldığı (icraata qəbul edildiyi) andan istintaqı başa çatanadək ibtidai istintaqın əməliyyat təminatı;
- icraatı dayandırılmış cinayət işləri tərtib edilmiş birgə plana əsasən fəaliyyət;
- əməliyyat-axtarış (təhqiqat) orqanının istintaq hərəkətlərinin aparılması haqqında müstəntiqin tapşırıqlarını və göstərişlərini yerinə yetirməsi;

- əməliyyat-axtarış (təhqiqat) orqanının müstəntiqin axtarış hərəkətlərinin aparılması haqqında tapşırıqlarını və göstərişlərini yerinə yetirməsi;

- ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında (hadisə yerinə baxış, axtarış, ifadənin yerində yoxlanılması və s.) əməliyyat (təhqiqat) orqanının müstəntiqə kömək etməsi;

- hüquqi yardım göstərilməsi haqqında Azərbaycan Respublikasının tərəfdar çıxdığı müqavilələrə əsasən xarici dövlətlərin müvafiq hakimiyyət orqanlarının sorğuları əsasında əməliyyat-axtarış tədbirlərinin və istintaq hərəkətlərinin həyata keçirilməsində razılaşdırılmış fəaliyyət.

Terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə cinayətlərinin istintaqı zamanı tətbiq olunan qarşılıqlı fəaliyyət formaları müddətinə görə də fərqləndirilir: birdəfəlik, vaxtaşırı və daimi (ibtidai istintaq başa çatana qədər). İstintaq və əməliyyat (təhqiqat) orqanlarının qarşılıqlı fəaliyyəti prosessual və təşkilati cəhətdən də fərqləndirilir [7, s. 90-93]. Qarşılıqlı fəaliyyətin prosessual cəhəti dedikdə:

- ibtidai istintaqın aparılması məcburi olan cinayətin əlamətləri aşkar edildikdə əməliyyat (təhqiqat) orqanının cinayət işi başlaması, cinayətin izlərini müəyyən etmək və möhkəmləndirmək üçün təxirəsalınmaz istintaq aparması və işi müstəntiqə verməsi;

- cinayət işi başlanması haqqında məsələnin həll edilməsi üçün əməliyyat-axtarış tədbirləri vasitəsilə əldə edilmiş, cinayətin əlamətləri olan materialları müstəntiqə verməsi;

- əməliyyat-axtarış (təhqiqat) orqanının ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında müstəntiqə kömək etməsi;

- əməliyyat-axtarış (təhqiqat) orqanının ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında müstəntiqə kömək etməsi;

- əməliyyat-axtarış (təhqiqat) orqanının ayrı-ayrı istintaq və ya axtarış hərəkətlərinin aparılması haqqında müstəntiqin tapşırıqlarını yerinə yetirməsi;

- istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilmiş məlumatların mübadilə edilməsi başa düşülür.

Müstəntiq istintaqı aparılan terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə ilə bağlı iş üzrə əməliyyat-axtarış (təhqiqat) orqanına lazımi istintaq və axtarış hərəkətlərinin aparılmasını tapşırmağa və istintaq hərəkətləri aparılarkən ona kömək edilməsini tələb etməyə haqlıdır. Əməliyyat-axtarış (təhqiqat) orqanı müstəntiqin tapşırığını yerinə yetirməyə borcludur [6, s. 601].

İstintaq və əməliyyat-axtarış (təhqiqat) orqanlarının qarşılıqlı fəaliyyət formalarından biri də prosessual fəaliyyət və əməliyyat-axtarış tədbirləri nəticəsində alınmış məlumatların mübadiləsidir. İstintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində alınmış məlumatların qarşılıqlı mübadiləsi istintaq və əməliyyat-axtarış (təhqiqat) orqanlarının sonrakı hərəkətlərinin əsas istiqamətlərini müəyyən edir. Ona görə də alınmış məlumatlar birlikdə müzakirə olunmalı və onların yoxlanılması üçün razılaşdırılmış zəruri tədbirlər görülməli, bu məlumatlara əsasən istintaq və əməliyyat-axtarış hərəkətlərinin planı tərtib edilməlidir.

Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə cinayətlərinin açılması və araşdırılması üzrə müstəntiqə kömək məqsədilə bir qrup əməliyyat işçisinin ayrılması haqqında qərar (yaxud istintaq-əməliyyat qrupunun yaradılması haqqında qərar) tamamilə özünü doğruldur, ümumi işin öhdəsindən layiqincə gəlməyə şərait yaradır.

## Biblioqrafiya

1. Azərbaycan Respublikası hüquq-mühafizə orqanlarının səlahiyyətlərinə aid olunan cinayətlərin məcmusu Azərbaycan Respublikası Prezidentinin 25 avqust və 27 oktyabr 2001-ci, 27 may 2002-ci il tarixli müvafiq fərmanlarında göstərilmişdir.
2. Əliyev B.Ə. Dini ekstremizm terror fəaliyyətinin təhlükəli mənbəyidir //

Sivilizasiya və terror (məqalələr toplusu). Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2002, s. 113-127.

3. Артамонов И.И. Терроризм: способы предотвращения, методика расследования. Монография. М., Изд. Шумилова И.И., (Библиотека оперативника (открытый фонд)). 2002.

4. Галахов С.С. Криминальные взрывы. Основы оперативно-розыскной деятельности по борьбе с преступлениями террористического характера. М., "Экзамен", 2002, с. 104-105.

5. Кустов А.М. Модель механизма террористической деятельности преступной группировки // Антитеррор, Ставрополь, 2002, №1.

6. Образцов В.А., Топорков А.А. Установление лица совершившего преступление в условиях неочивидности // Криминалистика / под ред. В.А. Образцова. Москва, 2001.

7. Us O.V. Criminal and legal estimation of behaviour of person / Науковий вісник Міжнародного гуманітарного університету. Серія: «Юриспруденція». Выпуск 32, 2018, с. 90-93.